# Naxçıvan teatrının ilk Məcnunu, ilk Kərəmi

***Qədim Naxçıvan teatrı zəngin bir sənət yolu keçib. Kimlər gəlib, kimlər keçib bu səhnədən. Böyük xan Naxçıvanlı, Rza Təhmasib, Rza İsfəndiyarlı, Əli Xəlilov, Həsən Səfərli, Heydər Muradov, Miribrahim Həmzəyev, İsa Musayev, Mirhəsən Mirişli, Əyyub Haqverdiyev, Xədicə xanım Qazıyeva, Firuzə xanım Əlixanova, Zəroş xanım Əliyeva, Baxşı Qələndərli, Əkbər Qardaşbəyov, Aydın Şahsuvarov, Məmməd Quliyev, Vəli Babayev, Məmməd Qasımov, Yuran Məmmədov... kimi dəyərli sənətçilərin çiyinləri üzərində pərvəriş tapıb Naxçıvan teatrı.***

***Bu qədim sənət ocağının keçdiyi yol həmişə hamarlı olmayıb. Soyuqlu, şaxtalı, təqibli günləri çox olub. Amma heç bir təqib, heç bir tufan bu sənət fədailərini qorxutmayıb, əksinə onlar mərdanə mübarizə yollarından keçib teatrı yaşadıblar. Və təbii ki, özləri də yaşayıblar.***

Səməd Məmməd oğlu Mövləvi! Bu ad. Bu soyad hər bir naxçıvanlı üçün əziz və doğmadır. Və onun Naxçıvan texnikomundakı tarixi xidmətləri danılmazdır. Kim idi Səməd Mövləvi?!

Öncə kiçik bir arayış: Səməd Məmməd oğlu Mövləvi 1900-cu ilin şaxtalı, sazaqlı bir günündə, fevral ayının 20-də qədim Təbriz şəhərində dünyaya gəlmişdir. Uşaq ikən ata nəvazişindən məhrum olmuş, əmisi Əhməd ağanın himayəsi altında böyümüşdür. Rüşdiyyə məktəbində oxumuş və səhnəyə məhz məktəbli ikən qatılmışdır. 1917-ci ildə müqtədir sənətkar Sidqi Ruhulla Təbrizə Qastrola gəlir və Nəriman Nərimanovun "Nadir Şah" faciəsini tamaşaya qoyur. Gülcahan rolunu oynayan aktyor təsadüfən xəstələndiyindən bu rolu Sidqi Ruhulla məktəbli Səməd Mövləviyə həvalə edir. Sidqi Ruhulla öz xatirələrində yazır ki, Səməd Mövləvi tərəddüd etmədən Gülcahan rolunu gözəl oynadı. Məktəbli Səməd Mövləvinin səhnəyə gəlişi məhz bu təsadüfdən yarandı.

1920-ci ildə "Ölülər" komediyası Cəlil Məmmədquluzadənin yaxından iştirakı ilə Təbriz şəhərində tamaşaya qoyulur. Bu tamaşada Səməd Mövləvi Hacı Baxşəli rolunda çıxış etmişdir. Digər rolları aşağıdakılar ifa etmişlər: İskəndər - Böyükxan Naxçıvanlı, Şeyx Nəsrullah - Əli Azəri, Məşədi Oruc - Cabbar Əmirov, Cəlal - Mirzə Cəlilin oğlu Midhət, Nazlı - Mirzə Cəlilin qızı Münəvvər. Elə həmin ilin sonunda. S. Mövləvi Naxçıvana gəlir və ömrünün axırına kimi Naxçıvan teatrında fəaliyyət göstərir. 1920-1962-ci illər S. Mövləvinin Naxçıvan teatrındakı qaynar fəaliyyət illəridir.

Səməd Mövləvinin sənət palitrası çox geniş və rəngarəng olmuşdur. O, həmişə faciə, həm dramatik, həm lirik, həm də musiqili əsərlərdə (opera və operettalarda) bir-birindən fərqli obrazlar düzümü yaratmışdır. Məqaləmizin spesifik xüsusiyyətini nəzərə alaraq biz bu yazımızda müqtədir sənətkarlarımızın yalnız böyük istedad və məharətlə yaratdığı musiqili rollar (opera və operettalar) barədə söhbət açmağı məqsədə uyğun saydıq.

Bircə faktla demək yetər ki, Səməd Mövləvinin Naxçıvan teatrına gəlişi qədim sənət ocağının yaradıcılıq ab-havasında ciddi dönüş yaratdı. Məhz onun gəlişindən sonra Naxçıvan teatrında opera və operettalar oynanılmağa başlandı (S. Mövləviyə qədər bəzi musiqili komediyalar ("Arşın mal alan") bu teatrda oynanılmışdır. Lakin bunlar haradasa epizodik xarakter daşımışdır. Həm də sənətkarlıq baxımından bir o qədər də güclü deyildir. ).

Biz bu gün iftixarla deyirik ki, 119 yaşlı Naxçıvan teatrının ilk Məcnunu, ilk Kərəmi Səməd Mövləvi olmuşdur. Və yenə də qürurla bildiririk ki, məhz S. Mövləvinin rejissorluğuyla "Leyli və Məcnun", "Əsli və Kərəm", "Aşıq Qərib", "Ər və arvad", "O olmasın , bu olsun", "Arşın mal alan", "Beş manatlıq gəlin", "Əlli yaşında cavan", "Evliykən subay", "Ürək çalanlar"... kimi opera və operettalar uğrula tamaşaya qoyulmuşdur.

Əski illərə bir nəzər yaxud Səməd Mövləvinin yaddaşından sətirlər: Heç yadımdan çıxmaz: 1922-ci illərin payız ayları idi. Biz "Əsli və Kərəm" operasını tamaşaya qoymağı qərara aldıq. Tamaşanı mən hazırlamalı, Kərəm rolunda da çıxış etməli idim. Rollar paylandı...Bir ay müddətində məşq etdik. Tamaşanın musiqi hissəsini idarə etmək Adil Kəngərliyə tapşırıldı. Onun rəhbərliyilə orkestr təşkil olundu. Bu orkestrin tərkibinə yerli musiqi həvəskarları, bir dəmandolina çalan tapdıq Tapdıq Hüseynov (Tapdıq Hüseynov 55 ildən artıq Naxçıvan teatrında tar çalmışdır) daxil idi. Tamaşaya aid paltar, parik və səhnə ləvazimatı da əldə edildi.

Onu da deyim ki, "Əsli və Kərəm" operası Naxçıvanda ilk dəfə idi ki, göstərilirdi. Ona görə də çox böyük rəğbətlə qarşılandı (Bax:"Səhnədən keçən yollar"). Bakı, Yazıçı, 1983, səh. 240, 241). Qüdrətli sənətkarın bu xatırlaması aydınlığıyla sübut edir ki, Naxçıvan teatrında ilk dəfə milli operaya müraciət məhz S. Mövləvinin adı ilə bağlıdır. Və burası da məlumdur ki, Naxçıvan teatrında ilk dəfə Kərəm rolunu oynamaq da məhz ona nəsib olmuşdur. Bu unudulmayan cəhəti də yada salmaq istərdim ki, Səməd Mövləvi musiqili əsərlər üçün potensial imkanlı aktyor kadrları yetirmişdir. Firuzə Əlixanova, Zəroş Həmzəyeva, Əyyub Haqverdiyev, Əkbər Qardaşbəyov, Sofya Hüseynova, Roza Cəfərxanova, İbrahimMəmmədov (Bənəniyarlı), Müzəffər Səfərov... kimi sənətçilər S. Mövləvi məktəbinin layiqli davamçılarıdırlar.

Azərbaycan Respublikasının xalq artisti Firuzə xanım Əlixanovanın yaddaşından sətirlər:"Naxçıvan teatrının mühüm bir mərhələsi və inkişafı məhz Səməd müəllimin adı və fədakarlığıyla bağlıdır. Naxçıvanlı sənətkarların əksəriyyəti məhz S. Mövləviyə borcludur. Bu qədim sənət ocağında uğurla tamaşaya qoyulan "Leyli və Məcnun", "Əsli və Kərəm", "Aşıq Qərib", "Arşın mal alan", "Ər və arvad", "O olmasın, bu olsun", "Ürək çalanlar", "Evliykən subay", "Toy kimindir", "Əlli yaşında cavan", "Gözün aydın "... kimi opera və musiqili komediyalar S. Mövləvinin quruluşunda özünün layiqli səhnə şərhini tapmışdır. Və onu da deyim ki, bu tamaşalarda Səməd müəllim baş rolları xüsusi istedadla, əsl aktyor bacarığıyla teatrsevərlərə təqdim edirdi. Səməd Mövləvi sözün əsl mənasında müəllim-ustad idi. Şəxsən mən ondan çox şeylər öyrənmişəm. Mənim ilk sənət müəllimim, ilk ustadım yalnız Səməd Mövləvi olmuşdur. Özümü xoşbəxt sayıram ki, belə bir qüdrətli sənətkarla bir çox klassik və çağdaş səhnə əsərlərində qarşıçı (tərəf müqabil) olmuşam. "Leyli və Məcnun", "Əsli və Kərəm", "Aşıq Qərib", "Ər və arvad", "O olmasın, bu olsun" opera və operettalarda S. Mövləvi Məcnun, Kərəm, Aşıq Qərib, Mərcan bəy, Əsgər, Sərvər rollarını böyük ustalıqla rəsm edirdi. Mən də bu tamaşalarda Leyli, Əsli, Şahsənəm, Minnət, Gülçöhrə, Gülnaz kimi rollar ifa etmişəm.

Bircə ona təəssüflənirəm ki, Səməd müəllimin ömrü tez qırıldı. Cəmi 62 il yaşadı. Amma yaşadı, yaratdı, bizlər üçün böyük bir irs qoyub getdi. Onun yaratdığı məktəb əbədi yaşadı".

Ölməz sənətçimiz Firuzə Əlixanovanın sözünə mən də bir teatrşünas kimi şərik çıxıram və iftixar hissilə deyirəm ki, S. Mövləvi Naxçıvan teatrının mənəvi inkişafında, formalaşmasında, aktyor kadrlarının yetişməsində danılmaz xidmətlər göstərmişdir. Elə bircə faktı göstərmək yetər ki, Səməd Mövləvi Naxçıvan teatrının tarixində ilk dəfə Azərbaycanın xalq artisti fəxri adına layiq görülən sənətçidir (24 may 1960-cı il). Elə bunun özü ustad aktyorun hansı sənət dəyərlərinə, bacarığına malik olduğunu aydınlığıyla vurğulayır.

Tarixi bir həqiqətdir ki, Səməd 119 yaşlı Naxçıvan teatrının ilk Məcnunu olmuşdur. Və yeri gəlmişkən yada salaq ki, Tiflisdə fəaliyyət göstərən Azərbaycan Dram Teatrında da ilk dəfə Məcnunu oynamaq da məhz Səməd Mövləviyə nəsib olmuşdur. (S. Mövləvi bir neçə il Tiflis Azərbaycan Teatrında fəaliyyət göstərmiş və yaddaqalan obrazlar silsiləsi yaratmışdır. Məcnun, Kərəm, Aşıq Qərib, Şeyx Nəsrullah, Şeyx Sənan, Arif, Nəcəf bəy ("Leyli və Məcnun", "Əsli və Kərəm" Ü. Hacıbəyov), "Aşıq Qərib" (Z. Hacıbəyov), "Ölülər" (C. Məmmədquluzadə), "Şeyx Sənan", "İblis" (H. Cavid), "Dağılan Tifaq"(Ə. Haqverdiyev).

S. Mövləvinin Naxçıvan teatrında yaratdığı uzunömürlü səhnə surətləri çox olub. Yuxarıda qeyd etdiyim kimi məqalənin spesifik xüsusiyyətini nəzərə alıb ustad sənətkarın yaratdığı musiqili rolları barədə söhbət açırıq. Və bu rollar içərisində Məcnun, Kərəm, Sərvər ("Leyli və Məcnun", "Əsli və Kərəm", "O olmasın, bu olsun" Ü. Hacıbəyovun) xüsusilə nəzərlərdə diqqətlənmişdir. Şöhrətli sənətkarın məlahətli və yatımlı səsi, yüksək aktyorluq istedadı yaratdığı obrazın daha dolğun və kamil çıxmasına səbəb olmuşdur. Məcnun S. Mövləvinin ifa təqdimində əsl məhəbbət aşiqidir, Leyli onun üçün müqəddəs bir varlıqdır. Bütün səhnələrdə aktyor öz emosional ifasıyla, məlahətli səsiylə tamaşaçını ələ alırdı. Xüsusən də Leyliylə (F. Əlixanova) olan səhnələr daha təsirli, daha inandırıcı idi. Azərbaycanın xalq artisti Əyyub Haqverdiyev bu sətirlərin müəllifiylə söhbətlərində dönə-dönə demişdir ki, Səməd müəllimin yaratdığı Məcnuna dəfələrlə baxmışam və hər dəfə bu ecazlı ifa-

dan böyük zövq almışam. Səməd Mövləvinin ilhamla yaratdığı Məcnun onun səhnə ömürlüyünə, ümumən Naxçıvan teatrının salnaməsinə xisusi zənginlik, cazibədarlıq gətirmişdir.

Əyyub Haqverdiyevin sözlərinə əlavə olaraq bildirmək istərdim ki, Səməd Mövləvinin yalnız Məcnunu deyil, digər musiqili obrazları - Kərəm, Sərvər, Əsgər, Mərcan bəy, Quluş bəy, Gülümsərov, Kərbalayı Hüseynalı, Aşıq Murad və bunlara bənzər digər obrazlar S. Mövləvinin ustalıqla yaratdığı həqiqi səhnə surətləri idi.

Mən Naxçıvan teatrında qüdrətli sənətkarın çox rollarını görmüşəm, amma təəssüf hissilə bildirim ki, o illər mən məktəbli olmuşam (yuxarı siniflərdə oxuyurdum). Lakin buna baxmayaraq həmin rollar yaddaşıma əbədilik həkk olunub. Dramatik, romantik, həm də müstəqil rollarına böyük məftunluqla tamaşa etmişəm. Və sonrakı illər S. Mövləvinin yaradıcılığı barədə məqalələr, bukletlər yazmışam, televiziya və radio verilişləri aparmışam. Və bu gün iftixar və qürur hissilə deyirəm ki, nə yaxşı ki, ustadın bəzi rollarını görmək mənə qismət olmuşdur.

Böyük məhəbbətlə yaratdığı Məcnun rolunu görmək mənə nəsib olmayıb, o illər mən dünyaya gəlməmişdim. Amma tale qismətimdə ustadın 60 illik yubileyində (4 aprel 1960-cı il) onun yaratdığı Məcnunu görmək səadətinə çatdım. Həmin yubiley tədbirində Səməd Mövləvi üç tamaşadan parçalar oynadı Şeyx Nəsrullah ("Ölülər" C. Məmmədquluzadə), İmamyar ("Yaşar" C. Cabbarlı), Məcnun ("Leyli və Məcnun" Ü. Hacıbəyov). Həmin gün ustad necə də yapışıqlı idi. Sanki ötən əski illərin hesabatını verirdi tamaşaçılara. Azərbaycan xalq artisti Möhsüm Sənaninin çıxışını çox gözəl xatırlayıram: "Əziz qardaşım, Səməd! Bakıdan Naxçıvana gələrkən bütün yol boyu səninlə birgə keçirdiyimiz Tiflis günlərini, qastrol səfərini xatırlayırdım (M. Sənani S. Mövləviylə bir müddət Tiflis Azərbaycan teatrında çalışmışdır. Və həm də eyni yaşdadırlar. O, 1900-cu ildə Tiflisdə anadan olmuşdur. ). Sən Azərbaycan səhnəsinin gözəl Məcnunlarından birisən. Sən təkrarı olmayan ustad sənətkarsan. Naxçıvan teatrı sənə çox borcludur. Sən burada böyük sənət məktəbi yaratmısan. Sənin Azərbaycan teatrı qarşısında tarixi xidmətlərin heç bir zaman unudulmayacaq. Və Bakıdan gətirdiyim bu cib dəsmalımı (böyük bir xalça gətirmişdi) sənə hədiyyə edirəm. 60 yaşın mübarək olsun, qardaş! Yaradanlar ölməz olur, yarat, yaşa! Səni bağrıma basıram!"

Mövsüm Sənaninin çıxışlarından sonra ölməz Üzeyir bəyin qəlbləri riqqətə gətirən melodiyaları salona yayıldı. "Leyli və Məcnun" operasının final səhnəsi göstərildi. Salon bir anlığa alqış səsinə büründü. Məcnun - Səməd Mövləvi sənətsevərlərin gur alqışları altında səhnəyə çıxdı. 60 yaşlı ustad məlahətli və yapışıqlı səsiylə salondakıları ram etdi. Məcnunun ah-naləsi, nisgili və nakam notları, acı fəryadı S. Mövləvinin yatımlı və məlahətli səsində necə də anımlıydı. 60 yaşında belə bir yapışıqlı Məcnun oynayan sənətkar, gör 25-30 yaşlarında necə oynayırmış?! Sədd heyif ki, mən onun cavanlıqda oynadığı Məcnunu görmədim, ancaq 60 illik yubileyində yaratdığı Məcnundan bir parçaya məftunluqla qulaq asdım. Buna da min şükür dedim.

Bu sətirləri yazan zaman xəyal öz karvanını çəkib, məni xeyli əski illərə apardı. 43 il bundan öncə olan romantik bir aləm. O aləm ki, onda Naxçıvan teatrında Səməd Mövləvi vardı, Mirhəsən Mirişli vardı, Miribrahim Həmzəyev vardı... Və indi fikirləşirəm ki, ustad aktyor Səməd Mövləvini mən axrıncı dəfə hansı rolda görmüşəm. S. Ələsgərovun "Ulduz" musiqili komediyasında ustalıqla rəsm etdiyi Gülümsərov rolunda. S. Mövləvi sənətilə gülə-gülə ayrıldım. Son vida gülüşüm də gülüşlə bitdi. Yaratdığı rolun adı da hafizəmə əbədilik həkk olundu: Gülümsərov

Belə bir ustad aktyorumuz vardı: adı Səməd, atasının adı Məmməd, soyadı Mövləvi. Şaxtalı, boranlı bir gündə 1900-cü ilin fevral ayının 20-də Təbriz şəhərində dünyaya göz açdı. Mənalı həyatı Naxçıvan teatrında keçdi. 45 il fasiləsiz olaraq yaratdığı obrazlara ölməz səhnə ömrü bəxş etdi. Və həminobrazlar milli teatrımızın salnaməsinə həkk oldu. Və 1962-ci ilin soyuqlu, sazaqlı bir günündə, fevral ayının 6 - da qədim Naxçıvan şəhərində dünyasını dəyişdi. 43 ildir ki, Naxçıvan teatrı Səmədsiz qalıb. Bu gün göy qübbəsinin altında yoxdur ustad sənətkar. Özü olmasa da, yaratdığı əlvan biçimli səhnə surətləri şirin bir xatirəyə çevrilərək yaddaşlara köçüb. Deməli, yaşayır Səməd Mövləvi. Onun sənət irsini oğlu, Azərbaycanın əməkdar artisti Tofiq Mövləvi şərəflə davam etdirir. Səməd Mövləvi ömrü bax beləcə öz axarıyla davam edir...

***Cəlil Vəzirov,***
***əməkdar mədəniyyət işcisi, teatrşünas***